# Məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüquqi üzrə ixtisaslaşdırılmış kurslar başa çatmışdır

116 saylı Qəbələ Dairə Seçki Komissiyası tərəfindən məntəqə seçki komissiyalarının sədrləri üçün təşkil edilmiş seçki hüququ üzrə ixtisaslaşdırılmış üç günlük kurslar avqustun 7-də başa çatdırılmışdır.

Kurslar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının tədbiq edilməsi haqqında» 2006-cı il 28 dekabr tarixli və «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında» 2011-ci il 27 dekabr tarixli sərəncamlarına uyğun olaraq təşkil edilmişdir.

Dairə seçki komissiyasının sədri Ramiz Əsədov kurs iştirakçılarına təmsil etdiyi komissiyanın fəaliyyəti barədə məlumat vermişdir. O, seçici hüququ üzrə ixtisaslaşmış kursların və təcrübə mübadiləsinin əhəmiyyətindən danışmış, belə kursların ənənəvi olaraq keçirilməsinin vacibliyini vurğulamışdır. Bildirilmişdir ki, əhalisi 90 min nəfəldən çox olan Qəbələ rayonunda 116 saylı seçki dairəsinin əhatə etdiyi ərazidə 51 seçki məntəqəsi vardır. Hazırda bu dairə üzrə 42311 seçici qeydiyyata alınmışdır. Dairə seçki komissiyasında və məntəqələrdə prezident seçkilərinə ciddi hazırlıq işləri aparılır. Seçkilər tam azad, şəffaf və demokratik şəraitdə keçiriləcəkdir.

Tədbirdə Qəbələ Rayon Prokurorunun köməkçisi Elçin Sadıqov «Seçki subyektləri, seçki hüquqlarının pozulmasına görə məsuliyyət nəzərdə tutulan qanunvericilik aktları və məsuliyyət növləri mövzusunda çıxış etmişdir. Natiq bildirmişdir ki, seçki hüquqi üzrə ixtisaslaşdırılmış kursların əhəmiyyəti böyükdür. Qeyd etmişdir ki, seçki hüquqi dövlətin öhdəlikləri, dövlətdə hüququn təminatı modeli isə vətəndaş hüquqları ilə bağlıdır. O, məntəqə seçki komissiyalarının maarifləndirilməsi, seçki məcəlləsinin tələbləri yerinə yetirilməsi ilə bağlı görüləsi işlərdən, habelə seçki subyektlərinin seçki hüquqlarının pozulmasına görə məsuliyyət nəzərdə tutan qanunvericilik aktları və məsuliyyət növllərini təhlil etmişdir.






Prezident seçkilərinin hər bir ölkənin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu vurğulayan MSK katibliyinin hüquq şöbəsinin müdiri İradə Hacıyeva demişdir ki, seçkilərin demokratik, azad keçirilməsi ölkəmizdə normal seçki şəraitinin yaradılmasından asılıdır. Seçkilərin azad və şəffaf keçirilməsi həmin cəmiyyətdə yüksək demokratiyanın formalaşmasından xəbər verir. Bildirilmişdir ki, Prezident İlham Əliyevin müvafiq sərəncamlarına üyğun olaraq keçirilən kurslar bu sahədə görülən genişmiqyaslı işlərin tərkib hissəsidir. O, respublikamızda həyata keçirilən uğurlu siyasət nəticəsində demokratik seçkilərin keçirilməsi üçün zəruri ictimai-siyasi sabitliyin bərqərar olunduğunu, beynəlxalq təcrübəyə söykənən mütərəqqi hüquqi baza yaradıldığını diqqətə çatdırmışdır. Çıxışlarda daha sonra qeyd edilmişdir ki, dövlət başçısının diqqəti və qayğısı nəticəsində ölkəmizdə demokratik seçki təcrübəsi ildən-ilə möhkəmləndirilir. Seski prosesində müşahidəçilərə vəzifələrini yerinə yetirmələrinə məhdudiyyət yaradıla bilməz. Heç kimə ixtiyar verilmir ki, seçki komissiyasınının fəaliyyətinə manеə yaratsın. İradə Hacıyeva diqqətə çatdırmışdır ki, qanunvericiliyin tələblərinə və müşahidəçilərin istəyinə uyğun olaraq informasiya təzminatı zəruridir. Komissiyaların ixtiyarı yoxdur ki Seçki Məcələsinin tələblərindən kənara çıxsınlar. Seçki prosesinin aparılmasına qarşı atılan addımların qarşısı qanun çərçivəsində alınmalıdır. Milyonlarla insanların iştirak etdiyi seçkiləri ideal keçirmək mümkün deyildir. Sadəcə, seçkilərdəki mənfi halları minimuma endirmək lazımdır. O, sonda tədbir ihtirakçılarını maraqlandıran sualları ətraflı cavabldandırmışdır.

Yekun nitqi ilə çıxış edən DSK-nın sədri Ramiz Əsədov məntəqə seçki komissiyalarına müntəzəm olaraq hüquqi, texniki, metodiki və təşkilati kömək edəcəyini diqqətə çatdırdı.

**Aslan CƏLİLOV.**
**Fotolar S. Umuyevindir.**

# Yeni Azərbaycan Partiyası sıralarına yeni üzvlər gəlir

Bu günlərdə Mirzəbəyli İnzibati ərazi nümayəndəliyində YAP Mirzəbəyli kənd ərazi ilk partiya təşkilatının yığıncağı olmuşdur.






Yığıncağı ərazi ilk partiya təşkilatının sədri Araz Ağayev açmışdır. Yığıncağın gündəliyində ərazi ilk partiya təşkilatından partiya sıralarına qəbul olunmuş üzvlərə vəsiqələrin təqdim edilməsi məsələsi dururdu. Bu barədə çıxış etmək üçün söz YAP Qəbələ Rayon təşkilatının sədr müavini, icra aparatının rəhbəri Elçin Tağıyevə verilmişdir. E.Tağıyev əvvəlcə Yeni Azərbaycan Partiyasının yaranma tarixi, partiyanın keçdiyi şərəfli yol haqqında, o cümlədən Mirzəbəyli kənd ərazi ilk partiya təşkilatının uçotunda duran üzvlərin sayının mütəmadi olaraq artmasından danışmışdır.

Hazırda ərazi ilk partiya təşkilatının uçotunda 150 nəfər partiya üzvü durur. Onların bir çoxu istehsalatda calışır, kəndin ictimai-siyasi həyatında fəal iştirak edir, müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində öz bilik və bacarıqlarını, təcrübələrini əsirgəmirlər.

Sonra partiya sıralarına yeni qəbul olunmuş 6 nəfərə partiya vəsiqələri təqdim olundu. Mirzəbəyli kənd uşaq bağçasının müdiri Arifə Əzizova, Qərənfil Xəlilova, təcrübəli partiya üzvlərindən Qoşqar Əzizov, Arzu Rəsulova, Cavad Qaçayev, Tahir Hacıyev çıxış edərək partiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin rifahı, xalqın həyat səviyyəsinin yüksəldilməsi üçün həyata keçirdiyi tədbirləri ürəkdən dəsdəklədiklərini bildirmiş, qarşıdakı prezident seçkilərində fəal iştirak edəcəklərini söyləmişlər.

Sonda ərazi ilk partiya təşkilatının sədri Araz Ağayev çıxış etmiş, yeni qəbul olunmuş üzvləri təbrik etmiş, onlara fəal həyat mövqeyi arzulamışdır.

**Nadir ATAKİŞİYEV.**

# Müsəlmanların birlik və həmrəylik bayramı

Mübarək oruclug ayının başa çatması ilə əlaqədar bütün dünya müsəlmanları Ramazan bayramını qeyd etdilər.

Hər bir müsəlmana oruc tutmaq fərz olduğu kimi, Ramazan bayramını qeyd etmək də vacibdir. Artıq bu bayram neçə illərdir ki, dövlət səviyyəsində qeyd edilir. Bayram günlərində müsəlman ailələrində şən əhval-ruhiyyə hökm sürür. Qonşular, dost-tanışlar bir-birinə qonaq gedir, küsülülər barışırlar. Bir sözlə, insanlar arasında həmrəylik, birlik bu bayramda özünü daha çox büruzə verir.

Rayonumuzda da Ramazan bayramı yüksək səviyyədə qeyd edilmişdir. Dövlətimiz tərəfindən bayram günlərinin qeyri iş günü kimi qeyd edilməsi insanların işini daha da asanlaşdırmışdır. Hansı ki, sovet dövründə bütün bunlara yasaq qoyulmuşdu. Müstəqilliyimiz bərpa edildikdən sonra bu yasaqlar aradan götürülmüşdür.

Bu gün bizim dövlətimiz milli və dini ənənələrə, bunların azadlığına şərait yaratmışdır. Qəbələdə bu günlərdə keçirilən Ramazan bayramı da bunu bir daha sübut etdi. İnsanlar sərbəst şəkildə məscidlərə axışaraq bayram namazlarını qıldılar, Allaha dualar etdilər, əmin-amanlığımızın təmin edilməsi, işğal altında olan torpaqlarımızın tezliklə düşmən pəncəsindən azad olunması üçün tanrıdan kömək və mərhəmət dilədilər.

Allah diləklərinizi qəbul etsin!

**«QƏBƏLƏ».**